12 fevral / 2021 ELM

# *Abdulla Şaiq:* Hər millətin tərəqqisi və fəaliyyətinin başlıca amili elm və əxlaqdır

**Fevralın sonu iki əlamətdar günə təsadüf edir. Ayın 21-də Beynəlxalq Ana Dili Günü qeyd olunur, 24-də isə görkəmli Azərbaycan şairi, yazıçısı, dramaturqu, tanınmış publisist, pedaqoq, maarifçi, tərcüməçi, milli uşaq ədəbiyyatının banilərindən biri Abdulla Şaiqin anadan olmasından 140 il ötür. Bu iki hadisəylə əlaqədar biz ədibin nəvəsi, Abdulla Şaiqin Mənzil Muzeyinin direktoru, AMEA Memarlıq və İncəsənət İnstitutunun aparıcı elmi işçisi, Əməkdar mədəniyyət işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ülkər Talıbzadə ilə söhbət etdik.**

**- Ülkər xanım, atanız akademik Kamal Talıbzadə, babanız Abdulla Şaiq, ulu babanız Axund Mustafa Talıbzadə, babanızın qardaşı Yusif Ziya dövrlərinin tanınmış, qabaqcıl şəxsiyyətlərindən olublar. Talıbzadələr nəslinin şəcərəsindən danışsaq yerinə düşər.**

- Abdulla Şaiq 1881-ci il fevralın 24-də Tiflisdə anadan olub. Onun nəsli çox dərin köklərə malikdir. Qədim Borçalı mahalında bu nəsil "Axund uşaqları" adı ilə məşhur idi. A.Şaiqin Borçalı mahalının Şəmsəddin sultanlığında yaşayan ulu babası Mustafa kişi XVII əsrin ortalarında 4 oğlu ilə birlikdə həmin mahalın Sarvan kəndinə köçüb. Dini təhsili olan, ədəbiyyatla maraqlanan oğlanlarını Tiflisə yaxın bir yerə köçürməkdə məqsəd onların təhsillərini davam etdirmək idi.

Şaiqin babası xəttat Süleyman Talıb oğlu dövrünün tanınmış din xadimlərindən olub. Açıqfikirli din xadimi və maarifçi olan atası Axund Mustafa Talıbzadə Zaqafqaziya Ruhani İdarəsində Əlibəy Hüseynzadənin babası, Şeyxülislam Molla Əhməd Səlyaninin müavini idi. O, həmçinin Ruhani idarəsinin nəzdində olan "Rüşdiyyə məktəbində" dərs deyib, dərsliklərin yazılmasında yaxından iştirak edib. Şaiq xatirələrində atası ilə bağlı yazır: "Atamın ruhani olmasına baxmayaraq, o öz təbiəti etibarı ilə daha çox müəllimə bənzəyirdi. O, məhdud fikirli, mütəəssib, zaman və mühitini düşünməyən ruhanilərdən deyildi. Vəzifəsinə sadiq, haqqı və doğruluğu sevən, zamanın maarifçi şəxslərindən idi... Bütün Tiflis camaatı onu sevirdi..."

Şaiqin böyük qardaşı Axund Yusif Ziya Talıbzadə XX əsrin əvvəllərində türkçülük, islamçılıq və azərbaycançılığın ideoloqlarından biri, publisist, maarifçi, dramaturq, hərbi və siyasi xadim olub. Əgər fikir verdinizsə bu soyun, demək olar ki, bütün nümayəndələri maarifçi olublar, maarifçilik, müəllimlik onların qanlarında idi.

**- Bilirik ki, Abdulla Şaiqin təhsil almasında və gələcəkdə müəllim kimi iş fəaliyyətinə başlamasında Nəriman Nərimanovun rolu böyükdür. Biraz Talıbzadələr ailəsinin Nəriman Nərimanovla münasibətlərindən söhbət edərdik.**

- A.Şaiq öz həyatını "Xatirələri"ndə elə gözəl qələmə alıb ki, mən sizin bütün suallarınıza onun öz sözlərilə cavab vermək istəyirəm: "Mən hələ kiçik ikən Nəriman Nərimanov Qori seminariyasını qurtarıb Tiflisə qayıtdığı zaman atam ilə görüşə gəlmişdi. Lakin kiçik olduğumdan sonralar onun siması hafizəmdən silinmişdi. Ailə dostluğumuz olduğuna görə Bakıya köçdükdən sonra anam ilə Nərimanı görməyə getdim."

A.Şaiq 1901-ci ildə Bakıya gəlir və burada müəllimlik hüququ almaq üçün imtahana hazırlaşır. Gənc Abdullanın müəllimlik arzusunda olduğunu görən N.Nərimanov ona bu işdə köməklik edir. O, xalq komissarı M.Aqanoviçə xahiş məktubu ilə müraciət edib, A.Şaiqin müəllimlik hüququ alması üçün imtahana buraxılmasına icazə istəyir. A.Şaiq imperator III Aleksandr adına Birinci Bakı kişi gimnaziyasında N.Nərimanovun iştirak etdiyi komissiya qarşısında əla qiymətlə imtahan verərək orta məktəbdə Azərbaycan dili müəllimi olmaq hüququ qazanır və sentyabr ayından etibarən 6 sinifli şəhər məktəbinə ehtiyat müəllim təyin olunur.



**- Abdulla Şaiq şair, yazıçı, publisist, dramaturq kimi ədəbiyyatımızda öz dəstixətti ilə seçilən ədiblərimizdəndir. Həmçinin Azərbaycan uşaq ədəbiyyatının inkişafı, Uşaq teatrının yaranması da Şaiqin adıyla bağlıdır. Necə düşünürsünüz, bu gün ölkəmizdə uşaq ədəbiyyatı sahəsində inkişaf yetərincədirmi?**

- Abdulla Şaiqin uşaq əsərləri artıq 100 ildən çoxdur ki, bizim körpə balaların dilindən düşmür. Ən kiçik balalarımızın əzbərlədiyi ilk şeir nümunələri onun qələminə məxsusdur. Uşaqların bütün yaş dövrlərinə məxsus şeir və hekayələri, povestləri, dram əsərləri indiyədək dillər əzbəridir. A.Şaiq, A.Səhhət, M.Ə.Sabir və digər klassiklərimizin uşaq əsərləri dillərinin saflığı, məzmunları ilə uşaqları özlərinə cəlb edirlər. Həm də mənə elə gəlir ki, Şaiqin uşaq əsərlərinin sevilməsinin bir səbəbi də ondadır ki, o bu əsərləri bir pedaqoq kimi, uzun illər uşaqlarla işləyən, onların psixologiyasına dərindən bələd olan bir insan kimi yazıb. Ona görə uşaqlar onun şeirlərini əzbərləyəndə çətinlik çəkmirlər. Məncə indi yazılan uşaq əsərləri həm dil cəhətdən, həm də bədii xüsusiyyətləri baxımından fərqlidir.

*(ardı var)*

**Müsahibəni hazırladı:
Nəzmin CƏFƏROVA,
sənətşünaslıq üzrə fəlsəfə doktoru**